# Qars müqaviləsinin 100 İLİ:

## Əfsanələr, iddialar və tarixi gerçəklər

**Cavid İSMAYIL**
*tarix üzrə fəlsəfə doktoru*



(əvvəli ötən sayımızda)

***Bu mənada Nəriman Nərimanovun bədnam 1 dekabr 1920-ci il tarixli bəyanatı ilə Zəngəzuru Ermənistana güzəştə getməsindən cəmi bir gün sonra – dekabrın 2-də Kazım Qarabəkirin Ermənistanın daşnak hökuməti ilə imzaladığı Gümrü (Aleksandropol) müqaviləsinə Naxçıvanla bağlı müddəanın salınması heç də təsadüfi sayıla bilməz. Bəzi məlumatlara görə, Atatürkün 1 dekabr bəyanatından narazılığını Kazım Qarabəkir Behbud ağa Şahtaxtinskiyə çatdırmışdı.***

*Sovet dövründə ermənilərin Naxçıvana qarşı ərazi iddiaları ilə bağlı ən böyük skandallardan biri 1960-cı ildə baş vermişdi. Həmin ilin martında Xalq şairi Səməd Vurğunun Elmlər Akademiyasının böyük iclas salonunda keçirilən xatirə gecəsində əslən Naxçıvandan olan görkəmli ədəbiyyatşünas alim Abbas Zamanov da söz alıb çıxış etmişdi. Səməd Vurğun haqqında xatirələrini və şairin yaradıcılığı fonunda xalqlar dostluğundan danışdıqdan sonra o, Naxçıvanla bağlı təhlükəli xəbərlərin gəldiyini, ermənilərin Naxçıvanı Ermənistan SSR-in tərkibinə qatılması iddiasını irəli sürdüklərini bildirmiş, fikrini "Naxçıvan Azərbaycanın müqəddəs, ayrılmaz hissəsi olub, hissəsidir və belə olaraq da qalacaq və biz onu heç kimə verməyəcəyik" sözləri ilə tamamlamışdı.*

Yusuf Kamalın yazdığına görə isə, Moskva müqaviləsini imzalamaq üçün yola çıxmamışdan bir gün öncə Mustafa Kamalla görüşdüyü zaman ona "Naxçıvan türk qapısıdır. Bu xüsusu nəzərə alaraq əlinizdən gələni yapın!" göstərişi vermişdi. Yəni Moskva və Qars müqavilələri, eləcə də ondan sonra Türkiyənin atdığı addımlar Atatürkün Naxçıvan dəhlizinə nə qədər önəm verdiyini göstərir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası yaradılarkən Azərbaycan və Türkiyə arasında ümumi sərhəd yox idi. Bu, Mustafa Kamal Atatürkün İran şahı Rza Pəhləvi ilə Türkiyə ərazisinin Naxçıvana doğru uzadılaraq dəyişdirilməsi üçün ərazi dəyişikliyi barədə razılaşma əldə etməsindən sonra mümkün oldu. 23 yanvar 1932-ci ildə Tehranda imzalanmış Türkiyə-İran sazişinə əsasən, Böyük və Kiçik Ağrı dağları Türkiyəyə, bunun əvəzində isə Van bölgəsində Qotur adlanan ərazi İrana verildi. Eyni zamanda Atatürk Rza şahı İran-Naxçıvan sərhədindəki müəyyən ərazini Türkiyəyə satmağa razı sala bildi və həmin torpağın pulunu şəxsi vəsaiti ilə ödədi. Yalnız bundan sonra Türkiyə ilə Azərbaycan arasında 11 kilometrlik birbaşa sərhəd xəttinin yaradılması mümkün oldu.

Atatürkün bu uzaqgörən gedişi isə səbəbsiz deyildi. Moskva və Qars müqavilələrinə əsasən, Batum limanını Gürcüstana (əslində isə Rusiyaya) güzəştə getmək məcburiyyətində qalan Türkiyə üçün Naxçıvan Sovet Rusiyası tərkibindəki türk cümhuriyyətlərinə yeganə çıxış vasitəsi sayıla bilərdi. Kazım Qarabəkir paşa Naxçıvanı nahaq yerə "Şərq qapısı" adlandırmırdı.

### Qars müqaviləsindən sonrakı Sovet Naxçıvanı

Qars müqaviləsindən sonra Naxçıvan ərazisində Naxçıvan Sovet Sosialist Respublikası yaradıldı. Lakin 16 iyun 1923-cü ildə siyasi və inzibati statusunda dəyişiklik edilən Naxçıvan SSR Naxçıvan diyarına çevrildi. 1924-cü il fevralın 9-da bölgənin inzibati və siyasi statusu bərpa edilərək, Naxçıvan Muxtar Sovet Sosialist Respublikası elan edildi.

Ermənistan Qars müqaviləsi ilə Naxçıvanı qeyd-şərtsiz Azərbaycan torpağı kimi qəbul etsə də, Naxçıvana qarşı ərazi iddialarından əl çəkmədi və tarixi havadarlarının köməyi ilə zaman-zaman Naxçıvanın bir sıra ərazilərini öz tərkibinə qatdı. Belə ki, Zaqafqaziya MİK-in qərarları ilə 1929-1931-ci illərdə Naxçıvan MSSR-in ərazisinin bir qismi – Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzası Şahbuz nahiyəsinin Ağbinə, Ağxaç, Almalı, Dağ Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qərçıvan sovetliyinə daxil olan Mehri, Buğakər yaşayış məntəqələri, Kilit kəndinin bir hissəsi, ümumən 657 kvadrat kilometr sahə qanunsuz olaraq Ermənistana verildi. Ümumiyyətlə, 1920-1990-cı illərdə Naxçıvanın Qars müqaviləsi ilə təsbit edilmiş ərazisinin təqribən 15 faizi Ermənistan tərəfindən zəbt edildi.



*Qars müqaviləsindən sonra Naxçıvan ərazisində Naxçıvan Sovet Sosialist Respublikası yaradıldı. Lakin 16 iyun 1923-cü ildə siyasi və inzibati statusunda dəyişiklik edilən Naxçıvan SSR Naxçıvan diyarına çevrildi. 1924-cü il fevralın 9-da bölgənin inzibati və siyasi statusu bərpa edilərək, Naxçıvan Muxtar Sovet Sosialist Respublikası elan edildi.*
*Ermənistan Qars müqaviləsi ilə Naxçıvanı qeyd-şərtsiz Azərbaycan torpağı kimi qəbul etsə də, Naxçıvana qarşı ərazi iddialarından əl çəkmədi və tarixi havadarlarının köməyi ilə zaman-zaman Naxçıvanın bir sıra ərazilərini öz tərkibinə qatdı*

Sovet dövründə ermənilərin Naxçıvana qarşı ərazi iddiaları ilə bağlı ən böyük skandallardan biri 1960-cı ildə baş vermişdi. Həmin ilin martında Xalq şairi Səməd Vurğunun Elmlər Akademiyasının böyük iclas salonunda keçirilən xatirə gecəsində əslən Naxçıvandan olan görkəmli ədəbiyyatşünas alim Abbas Zamanov da söz alıb çıxış etmişdi. Səməd Vurğun haqqında xatirələrini və şairin yaradıcılığı fonunda xalqlar dostluğundan danışdıqdan sonra o, Naxçıvanla bağlı təhlükəli xəbərlərin gəldiyini, ermənilərin Naxçıvanı Ermənistan SSR-in tərkibinə qatılması iddiasını irəli sürdüklərini bildirmiş, fikrini "Naxçıvan Azərbaycanın müqəddəs, ayrılmaz hissəsi olub, hissəsidir və belə olaraq da qalacaq və biz onu heç kimə vermərik" sözləri ilə tamamlamışdı. Bu çıxış Abbas Zamanovun partiyadan xaric edilməsi və Azərbaycan (indiki Bakı) Dövlət Universitetinin baş müəllimi vəzifəsindən azad olunması ilə nəticələnmiş, eyni zamanda ermənilərin məkrli planının üstündən xətt çəkmişdi. Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda kiçik elmi işçi işləməyə başlayan Abbas Zamanov isə beş ildən sonra partiyaya və universitetdəki işinə bərpa olunmuşdu.

### Müstəqillik dövründə Qars müqaviləsi

***Ermənistanın Azərbaycana hərbi təcavüzü 1990-cı ildə Qars müqaviləsini yenidən gündəmə gətirdi. 18 yanvar 1990-cı ildə Naxçıvanın Şərur rayonunun Kərki kəndi SSRİ Daxili Qoşunlarının iştirakı ilə Ermənistan tərəfindən işğal olundu. Yanvarın 19-da isə ermənilər Sədərək qəsəbəsinə güclü hücum təşkil etdi.***

(davamı gələn sayımızda)